Proqram 4 fevral 2013-cü ildən 15 iyul 2014-cü ilədək 16 aylıq müddəti əhatə edir.

Proqramda iştirak etmək arzusunda olan namizədlər üçün müəyyən edilmiş tələblər aşağıdakılardır:

- namizəd ən azı bakalavr dərəcəsinə malik dövlət rəsmisi və ya dövlət sektorunda çalışan olmalı və ya müvafiq nazirlik tərəfindən tövsiyə olunmuş QHT nümayəndələri olmalı (həmçinin, ali təhsil müəssisələrinin nümayəndələri də iştirak edə bilər);
- ingilis dilini yüksək səviyyədə bilməli;
- Azərbaycan Respublikasının vətəndaşı olmalı;
- tibbi cəhətdən sağlam olmalı;
- namizəd əvvəllər KOICA tərəfindən həyata keçirilmiş təqaüd proqramlarında iştirak etməməlidir.

Təqaüd proqramında iştirakla bağlı bütün xərclər KOICA tərəfindən maliyyələşdiriləcəkdir.

Məlumatları və ərizə formalarını əldə etmək üçün Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə müraciət edə bilərsiniz (Aqil Vəliyev, tel: 496 34 14 )

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər ərizə formasını və digər lazımi sənədləri 16 noyabr 2012-ci il tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etməlidirlər.

**QEYD: müraciət edən namizədlər, həmçinin çalışdığı qurumun müvafiq tövsiyə məktubunu da Təhsil Nazirliyinə təqdim etməlidirlər.**